# Bura qədim Gəncədir!

**Bölgələrdə olarkən mədəni-maarif müəssisələrinin əməkdaşları işlərini günün tələbləri səviyyəsində qurmaq üçün elmi-metodiki yazılara, ssenarilərə geniş yer ayırmağımızı xahiş edirlər. Nümunə kimi aşağıdakı ədəbi-bədii kompozisiyanı diqqətinizə veririk.**

Musiqi sədaları altında 2 nəfər aparıcı səhnə önünə gəlir.

I aparıcı:

Salam, hər vaxtınız, gününüz xeyir!

II. Aparıcı:

Dinləyin, qəlbimiz görün nə deyir?!

I aparıcı:

Azərbaycan - Ana Vətən, müqəddəsdir bu diyar,
Səcdəgahdır, əmanətdir ulularдан yadigar.

II aparıcı:

Azərbaycan, Turan eli - nur payıdır cahanın,
Hər birimiz övladıyıq Vətən adlı Ananın.

*Musiqi sələnir:*

I aparıcı:

Ey Vətən övladları! Sizi, Yer üzünün, "Odlar diyarı" Azərbaycanın ən qədim şəhərlərindən olan ulu Gəncəmizin əsrlərin o tayından bu günümüzə gəlib yetən, söz dünyasında, hünər meydanında əbədiyyət qazanmış, adları əsrlərdən -əsrlərə, nəsillərdən - nəsillərə keçən yurddaşlarımızla görüşə dəvət edirik.

II aparıcı:

Gəncə! Ulular ulusu, Dədə Qorqudun Vətən deyə üz tutduğu şəhər!

I aparıcı:

Gəncə! Comərdi Qəssabın, Bəndərin, Məhsətinin, Nizaminin, Cavad xanın ana Vətəni!

*Musiqi səslənir:*

I aparıcı:

***Bura qədim Gəncədir,***
***Şəhərlərdən öncədir,***
***Şərqin "İpək yolu"nda***
***Mirvaridir, incidir.***
***Nizami şöhrətlidir,***
***Məhsəti ismətlidir,***
***Şairlər yurdu Gəncə.***

II aparıcı:

***Bəndər cəsarətlidir,***
***Tarixin yollarında***
***Cavadxan qeyrətlidir.***
***Müqəddəs, ulu Gəncə,***
***Kəpəz əzəmətlidir.***
***Göy-gölümtək saf, duru***
***Loğman təbiətlidir,***
***Bura qədim Gəncədir.***

I aparıcı:

Dinləyək Dədəmiz ulu Qorqudu.

II aparıcı:

Sevib, Vətən seçib bu ulu yurdu.

*(Dədə Qorqud musiqi sədaları altında aramla səhnəyə gəlir.)*

Dədə Qorqud:

"Hümmət qılıncımı belimə bağladım, çomağımı umuzuna buraxdım, yayı qorusuna keçirtdim, Şahbaz ayğırımı çəkdirib mindim, xəcmimi, qövmümü ayırdım, evimi çözdüm, Oğuzdan köç eylədim Bərdəyə, Gəncəyə varıb Vətən tutdum".

I aparıcı:

Gəncə ta qədimdən halal şəhər olub. Burda haramı yaxın qoymayan, yalana inanmayan, qayəsi saflıq, mərhəmət olan, şəhər sənətkarlarının əxilik - qardaşlıq, bərabərlik deyilən təşkilatı olub.

II aparıcı:

Gəlin, dörd əsas dini - əxlaqi normaya; şəriət, həqiqət, təriqət və mərifətə riayət edən əxilərin nümayəndəsi, əlləri tərəzi olan gəncəli Comərdi Qəssabı dinləyək!

*(Comərdi Qəssab musiqi sədaları altında səhnəyə gəlir.)*

Comərdi Qəssab:

"Ey mənim həmvətənlərim! Ey mənim qardaşlarım, ey mənim bacılarım! Haqqı - nahaqqa verməyin, düz yolu azmayın, düz əhdi pozmayın, əxi qardaş, əxi bacı, unutma ilk andını: haram yemə, yalan demə!"

***Namərdləri zəlil eylə,***
***Haramxoru xəcil eylə,***
***Yer üzündə sən hamını,***
***Mərhəmətli nəsil eylə.***
***Mənim Tanrım, mənim Tanrım!***

I aparıcı:

Gəncə! Yaranışından neçə - neçə yadellilərin, xain qəsbkarların hücum etdiyi, qarət etdiyi şəhər!

II aparıcı:

Gəncə! Dostuna duz - çörəkli, düşməninə nifrətli şəhər!

*Musiqi səslənir:*

I aparıcı:

1225-ci il, Xarəzm şah Cəlaləddinin işğalçı qoşunu Gəncəyə hücum etdi. Əhali ağır vergilərdən, təhqir və işgəncələrdən təngə gəldi, zülm ərşə dirəndi.

II aparıcı:

1231-ci il, Gəncənin adlı-sanlı zərgəri sənətkar Dədə İmranın yeganə oğlu igid Bəndərin başçılığı ilə Xarəzm şah Cəlaləddinin zülmünə qarşı gəncəlilər üsyan etdilər. Bəndərin rəhbərliyi ilə Cəlaləddinin qərargahı məhv edildi, Sultan taxtı dağıldı, varlıların əmlakı alınaraq yoxsullara paylandı.

I aparıcı:

Şəhər bir müddət sənətkarların əlində qalsa da satqınlıq nəticəsində Bəndər və onun 30 nəfər ən yaxın silahdaşı edam edildi.

II aparıcı:

Ancaq nə qəm! Bəndər öz qeyrəti, hünəri ilə Gəncənin tarixində, gəncəlilərin yaddaşında həmişəlik qaldı.

I aparıcı:

*Gəlin dinləyək igid Bəndəri,*
*Görək nədir bizə sözü - söhbəti.*

(Bəndər musiqi sədaları altında səhnəyə gəlir.)

Bəndər:

Ey odlar yurduma qənim kəsilənlər! Yiyəsiz bilməyin bu el-obamı. Sizə qardaş dedik, dost dedik. Haqq-nahaqqa, yaxşı-yamana qarışdı. Belə də namərdlik olardı?

Ey ulu yurddaşlarım! Torpaq Anadı, Namusdu, İsmətdi. Ey həmvətənlər, ey igidlər! Amandı, anamız Vətəni qoruyaq! Namusdu, İsmətdi torpaq! Onu əldən verməyək! Axı Vətən üçün yaşayanlar yaşadırlar Vətəni!

I aparıcı:

*Gözəl rubailər yazıb.... Məhsəti!*
*Eşq, məhəbbət olub sözü - söhbəti!*

*(Məhsəti lirik musiqinin müşayiəti ilə səhnəyə gəlir.)*

Məhsəti:

*Mən, Məhsətiyəm, hüsnümə yox tay, ortaq,*
*Olmuş mənə heyran o Xorasanla İraq.*
*Ey Piri - Xətibi - Gəncə, gəl sən Allah,*
*Qoyma məni ta yandıra odlara fəraq.*
*Mən tikansız, təzə, ətirli güləm,*
*Qəmlərini çəkən şeyda bülbüləm.*
*Şahların qolunda oturan qırğı,*
*Düşmüşdür toruna, eyləmə sitəm!*
*Yetməzmi qəribə verdin işgəncə,*
*Cəfanın hüdudu olmazmı, səncə?!*
*Demişdin: Gəncədə kamə yetərsən,*
*İndi bu mən, bu sən, bax, bu da Gəncə!*

I aparıcı:

*Nizaminin "Xəmsə"si*
*Hikmət dolu çeşməsi,*
*Əbədi çağlayacaq!*

II aparıcı:

*Nə qədər bu həyat var,*
*Dünya söz xəzinəsi*
*Onunla parlayacaq!*

I aparıcı:

*On ikinci yüz ildən*
*Gəncə söz mühitindən*
*Bizə inci bəxş edir.*

II aparıcı:

Əbədi şeir Allahı
Ulu Nizami deyir:

*(Nizami Gəncəvi musiqinin müşayiəti ilə səhnəyə gəlir.)*

Nizami:

*Ey mənim ürəyim, əzizlərim, siz*
*Elimə, obama xoş gəlmisiniz!*
*Diri sayırsınız məni cahanda,*
*Mən də canlanıram, siz canlananda!*
*Gəncə - Harut sehirli Babil deyil, bəs nədir?!*
*Ürəyim ulduzlara nur saçan bir zöhrədir.*
*Zöhrə təki ucalıb Mizan Bürcünə Gəncə,*
*Onu belə ucaldan ülvi sözümdür, məncə.*
*Dünyada nə qədər kitab var belə,*
*Çalışıb, əlləşib gətirdim ələ.*
*Oxudum, oxudum, sonra da vardım,*
*Hər gizli xəznədən bir dürr çıxardım.*

I aparıcı:

Tədqiqatçı alim gəncəli Qəzənfər Əliyev özünün "Nizaminin mövzu və sujetləri Şərq xalqları ədəbiyyatında" adlı monoqrafiyasında yazmışdır: - "Tibetdən Kiçik Asiyaya qədər geniş ərazidə yaşayan müxtəlif xalq və millətlərin içərisindən çıxmış 287 ədib, şair və dramaturq Nizami mövzularına müraciət etmiş, onun poemalarının mövzu və sujetlərində əsər yazmışdır."

I aparıcı:

- O da aydın olur ki, Nizaminin "Sirlər xəsinəsi"nə 99, "Xosrov və Şirin"inə 98, "Leyli və Məcnun"una 123, "Yeddi gözəl"inə 55, "İsgəndərnamə"sinə 34 nəzirə yazılmışdır.

Nizami:

*"Aləm deyir: "Övladsan sən dünyaya, Nizami,*
*Sığışmazsan Gəncədə gen dünyaya, Nizami!"*
*Təmizdir ilhamı tək ürəyi Nizaminin*
*Təmizlikdir, düzlükdür bəzəyi Nizaminin!*
*Düyünləmişdir mənim yaxamı doğma Gəncə,*
*Yoxsa İraq xəzinəsi, qismətim idi məncə.*
*Dünya məni səsləyib söylədi ki, ey qulam,*
*Gəncəlisən, Gəncədə ömr edərək al ilham!*
*Şairliyim saxlayıb dustaq kimi Gəncədə,*
*Mənəm indi dünyanın söz hakimi Gəncədə!*
*Sənətim güzgüsüdür kainatın, varlığın,*
*Yer üzü məftunudur belə sehrkarlığın.*
*"Nizamiyəm, xəyala dönənin biriyəm mən,*
*Həyəcanlı sözümlə əbədi diriyəm mən!"*

I aparıcı:

1804 - cü il, yanvar ayının 3 - ü! Xalqımızın yaddaşında, Gəncənin tarixində öz hünəri, əyilməzliyi, Çar Rusiyasının generalı, yadelli, qəsbkar Sisyanova qarşı barışmazlığı ilə əbədiyyət qazanmış gəncəli Cavad xanı dinləyək!



II aparıcı:

Milli qeyrət rəmzimiz olan, şəhidlik zirvəsinə ucalan, şücaəti, qəhrəmanlığı 2 əsrdən artıq ehtiram və qürur hissi ilə yad edilən babamız Cavad xana, onun öyüd-nəsihətlərinə ehtiyacımız var! Çünki, Ana Vətənimiz Azərbaycanın əzəli və əbədi torpağı cənnətməkan Qarabağımız məkrli xainlərin əlində inləyir! Görək igid babamız Cavad xan necə vuruşub?! Bizlərə sözü nədir?

*(Cavad xan musiqinin müşayiəti ilə səhnəyə gəlir.)*

Cavad xan:

*"Mənim bu son qərarım,*
*Ürəyimin səsiydi.*
*"Düşmən meyidimin üstdən,*
*Gəncəyə keçəsiydi!"*
*Son döyüşdə yağıdan*
*Ölümümlə bac aldım.*
*Şəhidlik zirvəsinə*
*Mən mərdliklə ucaldım.*
*Mənim qəhrəmanlığım,*
*Yerə - göyə səs saldı,*
*Şərəfli ölümümdən*
*Düşmən özü alçaldı.*
*Ey Vətən övladı gərək biləsən,*
*Birlik olmayanda yox olur Vətən!"*

*Musiqi səslənir:*

I aparıcı:

*Sevinirik nə yaxşı,*
*Azərbaycan - Vətən var!*
*Azərbaycan tək gözəl,*
*Başqa Vətən harda var!*

II aparıcı:

*Sevinirik nə yaxşı,*
*Bu "Odlar" ölkəsində,*
*Böyük Yer kürəsində*
*Şəhərlərin öncəsi,*
*Vardır ulu xalqımın*
*Qədim, həmişəcavan*
*"Xəzinəsi" - Gəncəsi!*

I aparıcı:

*Bax burda yada düşür,*
*Tanrının möcüzəsi.*

II aparıcı:

*Şəhər qədim adından*
*Neçə dəfə ayrılıb,*
*Yelizavetpol olub,*
*Abbasabad çağrılıb,*
*Sonra da Kirovabad...*

I aparıcı:

*Zaman öz işin görüb:*
*Şəhərin qədim adı*
*Yenə geriyə dönüb*
*Əbədi Gəncə olub.*

*Musiqi səslənir:*

II aparıcı:

*Bəs Gəncə sözü nədir,*
*Niyə şəhərin adı,*
*Başqa söz yox, Gəncədir?!*

I aparıcı:

*Alimlərin fikrincə*
*Söz pəhləvi dilində*
*Əmtəə yığılan yer,*
*Yəni ki, xəzinədir.*

II aparıcı:

*Burda xatırlayaq biz,*
*Qədim bir rəvayəti.*
*Bu xalq, necə yaradıb,*
*Görək bu hekayəti?*

*Musiqi səslənir:*

I aparıcı:

*Guya bu ərazidən*
*Keçirmiş böyük karvan.*
*Varlı tacirin imiş*
*Çox uzaq yol gəlirmiş,*
*Yorulubmuş bu karvan.*

II aparıcı:

*Dincəlmək üçün, sariban*
*Soruşur ki, tacirdən*
*Biz harda çadır quraq,*
*Dincələk, bir az duraq?*

I aparıcı:

*Tacir göstərib deyir:*
*Çadır üçün bax, bu yer*
*Münasibdir, gencədir.*

II aparıcı:

*Elə bu gencə yerdə,*
*Şərq İpək yolu üstdə*
*Böyük şəhər salınır,*
*Adı da Gəncə qalır.*

I aparıcı:

*Xalqımın yaratdığı,*
*Bu da bir rəvayətdir.*
*Həqiqətə bənzəyən*
*Bu da bir hekayətdir.*

*Musiqi səslənir:*

II aparıcı:

*Bax burda başa çatdı*
*Gəncənin tarixinə*
*Etdiyimiz səyahət.*

I aparıcı:

*Gəncə... ulu cahanın,*
*Müqəddəs, pir şəhəri.*

II aparıcı:

*Gəncə... Vətən Ananın*
*Dünən, bu gün, səhəri!*

*Musiqi sədaları altında ədəbi-bədii kompozisiya başa çatır.*

**● Bəxtiyar MURADOV,**
*şair-publisist*